

# NÜFUZ QAZANMAQ ÜÇÜN

***Doğru deyirlər ki, kadr hər şeyi həll edir. Bacarıqlı işçi əlində heç bir çətinlik, problem davam gətirmir. Onun işgüzarlığı, ahəngdar fəaliyyəti ilə kollektivdə dönüş yaradılır, yüksək göstəricilərə nail olunur. Ağdam Rayon Mədəniyyət Şöbəsinin müdiri Şahin Qasımovla görüşüb söhbət edərkən bir daha bunun əyani şahidi oldum. Əvvəlcə müəssisələri gəzdik, əməkdaşların uğurlarına razılığımızı bildirdik, indiki çatışmazlıqları barədə tövsiyələr etdik.***

Bəli, bu gün heç bir kollektiv nöqsanlardan xali deyil. Amma əvvəlki illərlə müqayisədə bu, Ağdamda yox dərəcəsindədir. Şahin müəllimin şöbənin müdiri kimi fəaliyyətə başladığı dövr ərzində çox şeyə nail olunub. Bu qayğıkeş, mehriban insan rəhbərlik etdiyi sahəni ailəsindən ayırmır. Bəlkə də rayonda böyük nüfuz qazanması elə bu səbəbdən irəli gəlir.

Söhbət zamanı özü haqqında danışmağı lazım bilmədi. Daha çox mədəniyyət naziri Polad Bülbüloğlunun, onun müavini Ədalət Vəliyevin və Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Həsən Sarıyevin göstərdiyi qayğılardan söhbət açdı.

-Hər bir işin uğuru həyata keçirilən tədbirlərin sayı, rəngarəngliyi və aktuallığı ilə ölçülür. Bu mənada, yola saldığımız 2004-cü ildə və cari ilin birinci rübündə fəaliyyətimiz öz məhsuldarlığı ilə fərqlənir.

20 yanvar faciəsinin ildönümü münasibəti ilə ədəbi-bədii kopmozisiya hazırlanmış, geniş tamaşaçı qarşısında anma mərasimi keçirilmişdir.

Bununla yanaşı hərbi çağırışlarla bağlı Ağdam hərbi komisarlığında və Xındırıstan "N" hərbi briqadasında geniş konsertlər verilmişdir.

Gənclər günü münasibəti ilə "Gəl mahnı qoşaq" ansamblı "Türk" və "Ərəb-1" çadır şəhərciklərində maraqlı tədbir keçirilmiş, "Şur", "Ağdam", "Bahar", "Yurd" ansamblları gənc hərbçilərin andiçmə mərasimi ilə bağlı hərbi hissələrdə geniş konsert proqramı ilə çıxış etmişlər.

"Xocalı soyqırımı" günü münasibəti ilə Quzanlı kənd mədəniyyət evinin hazırlıq, ədəbi-bədii kompozisiyası böyük marağa səbəb olmuşdur.

Tədbirlər planına əsasən mart ayı ərzində mədəniyyət şöbəsinin kollektivi çoxsaylı tədbirlər keçirmişdir. "Novruz bayramı" münasibəti ilə rayonun işğal olunmamış kəndlərində, məcburi köçkünlərin məskunlaşdığı "Türk-Qızılay", "Ərəb-2", "Quzanlı" çadır şəhərciklərində, "Dörd yol", "Kələntərli" Bərdə "Dəmiryol", Bərdə "Lək meşəsi" və s. qaçqın düşərgələrində geniş el şənlikləri keçirilmişdir.

"Novruz bayramı" münasibəti ilə hərbçilərə göstərilən mədəni xidmət daha geniş təşkil edilmişdir. Belə ki, rayonun ərazisində yerləşən bütün hərbi hissələrdə konsertlər verilmişdir. Xüsusi ilə Qiyaslı musiqi məktəbinin "qarabağ təranələri" ansamblının "N" saylı hərbi hissədə verdiyi konsert çox maraqla qarşılanmışdır. Konsertin sonunda mədəniyyət şöbəsinin rəhbərliyi əsgərlərə bayram sovqatı təqdim etmişdir.

Məlumat üçün bildiririk ki, 2004-cü il aprel ayının əvvəllərində rayon mədəniyyət şöbəsi Bərdə ərazisindən köçərək Quzanlı kənd mədəniyyət evində fəaliyyətə başlamışdır. Mədəniyyət evində şöbənin işçiləri üçün normal şərait yaradılmışdır ki, bu da 11 illik köçkün şəraitində işləməyə son qoymuşdur. Doğma Ağdam torpağında fəaliyyətə başlayan şöbənin kollektivi öz işlərində dönüş yaradaraq daha səylə çalışmağa başlamışlar.

Uşaq musiqi məktəbləri xor kollektivlərinin Respublika baxış-müsabiqəsində Seyidli və 2 saylı uşaq musiqi məktəblərinin xor kollektivləri fəxri fərmanla təltif olunmuşlar. X. Şuşinski adına muğam uşaq musiqi məktəbinin xor kollektivi müsabiqənin qalibi olmuş, diplomla mükafatlandırılaraq yekun konsertində müvəffəqiyyətlə çıxış etmişdir.

Astara şəhərində keçirilən uşaq muğam ifaçılarının II Respublika baxış-müsabiqəsində Qiyaslı uşaq musiqi məktəbi Mingəçevir filialının şagirdi Bəhruz Məmmədov diplomla mükafatlandırılmış, Elvin Əhmədzadə müsabiqənin qalibi kimi diplom almış və H.Əliyev adına sarayda yekun konsertində çıxış etmişdir.

Tarixi hadisələr, bayramlar, yubileylərlə bağlı şöbənin kollektivi mütəmadi olaraq mədəni-kütləvi tədbirlər keçirmişdir. 9 may-Qələbə günü, 28 May-Respublika günü, 15 iyun-Qurtuluş günü münasibəti ilə konsertlər, ədəbi-bədii kompozisiyalar hazırlanıb geniş tamaşaçı qarşısında göstərilmişdir.

Şöbənin tədbirlər planına uyğun olaraq hərbçilərə göstərilən mədəni xidmət işi daima diqqətdə saxlanılır. 26 iyun-Silahlı qüvvələr günü rayonun ərazisində olan bütün hərbi hissələrdə geniş konsertlər təşkil edilmiş, bu konsertlərdə "Şur", "Ağdam", "Yurd", "Bahar", "Qarabağ təranələri", "Gəl mahnı qoşaq" ansamblları, eləcə də Əfətli, Güllücə, Qarabağlı uşaq musiqi məktəblərinin kollektivləri müvəffəqiyyətlə çıxış etmişlər.

İyul ayında 190 saylı hərbi hissənin yaranmasının 10 illik yubileyi münasibəti ilə Quzanlı kənd mədəniyyət evində "Qarabağ təranələri" ansamblı çox uğurla çıxış edərək hərbi hissə komandanlığı tərəfindən təşəkkür məktubu ilə mükafatlandırılmışdır.

Quzanlı kənd mədəniyyət evində yaradılmış "Maraq və məntiq" dərnəyinin üzvləri bir sıra maraqlı yarışlar təşkil etmiş, Azərbaycan televiziyasının "Maraq və məntiq" verilişində bu haqda geniş məlumat yayılmışdır.

Sentyabr ayının 15-də Bilik günü münasibəti ilə rayonun ərazisində olan orta məktəblərdə, eləcə də "Türk Qızılay", "Ərəb-1", "Ərəb-2" çadır şəhərciklərində olan köçkün orta məktəblərdə geniş tədbirlər keçirilmişdir.

Mədəni-kütləvi tədbirlərlə yanaşı mədəniyyət müəssisələrinin bir çoxunda cari təmir işləri aparılmışdır. Belə ki, Çəmənli Mədəniyyət evi təmir edilmiş, Quzanlı mədəniyyət evində yenidən təmir-bərpa işləri aparılır və başa çatmaq üzrədir.

Mədəniyyət şöbəsinin maddi-texniki bazasının bərpası sahəsində də bir sıra işlər görülmüşdür. Musiqi məktəbləri bir sıra musiqi alətləri, stol və stulla təchiz edilmişdir

Şöbəyə 1 dəst akustik səsgücləndirici alınmış, "Şur" ansamblı səhnə geyimi ilə təchiz edilmişdir.

Biz mətbuat orqanlarına abunə yazılışı, hazırlıq kursuna dinləyici göndərilməsi kitabxana kollektoru ilə müvafiq müqavilə bağlayıb kitabxanalarımızı latın qrafikalı ədəbiyyatla zənginləşdirmək sahəsində də mühüm işlər görmüşük.

***Kollektivimiz bundan sonra da öz işlərini günün mələbləri səviyyəsində yerinə yetirməyə çalışacaqdır...***

TURAL



